# ƏHALİNİN RİFAHINA QAYĞI

2015-ci ilin birinci yarısının yaddaqalan hadisələri çoxdur. Prezident İlham Əliyevin son vaxtlar imzaladığı sənədlərdə əhalinin maddi rifah halının yaxşılaşdırılması, sosial problemlərin ardıcıllıqla həll olunması təxirəsalınmaz vəzifələrdən hesab edilir. Həmin sənədlərdəki tədbirlər sosial müdafiə sahəsində kompleks işlərin daha coşqun və intensiv templə davam etdirilməsinə stimul yaradır. Vətəndaşlar inanırlar ki, ötən illərdəki uğurlu tədbirlər üzümüzə gələn illərdə də davam etdiriləcək, insanlar bir sıra çətinliklərdən çıxacaq, daha firavan yaşayacaqlar. Biz bu məsələ ilə əlaqədar Cəlilabad rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Azər Mirzəxanlı ilə görüşüb söhbət etdik.

Qeyd edək ki, müsahibimiz gənc mütəxəssisdir, 1981-ci ildə anadan olub, Azərbaycan Dövlət İqtisad Universitetini bitirib, ixtisası üzrə müxtəlif təşkilatlarda məsul vəzifələrdə çalışıb. 2015-ci ilin yanvar ayından Cəlilabad rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə direktor təyin edilib.

Söhbət zamanı Azər müəllim qeyd etdi ki, respublikamızda ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi, cənab İlham Əliyev tərəfindən davam etdirilən strateji kurs uğurla həyata keçirilir, ölkənin vətəndaşları ilbəil daha firavan həyata qovuşur, yaxşı yaşayırlar. Hər bir vətəndaş inkişafımızdan bəhrələnir, bu da o deməkdir ki, ölkə başçısının əsas diqqəti insanların rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Prezidentin sərəncamı ilə yaşayış meyarında edilən müsbət dəyişiklik, ölkədə yoxsulluq səviyyəsinin minimuma enməsi sosial siyasətin düzgün aparıldığından xəbər verir.

A.Mirzəxanlının dediklərindən aydın oldu ki, əhalinin sosial rifahına yönəldilən tədbirlər hər yerdə olduğu kimi Cəlilabad rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi kollektivinin də fəaliyyətində yeni meyillərin meydana çıxmasına səbəb olmuşdur. İşçilərin tapşırılmış sahəyə məsuliyyəti qat-qat artmışdır. Respublikamızın rəhbəri cənab İlham Əliyevin bu sahədə çalışan əməkdaşların işinə verdiyi yüksək qiymət onları daha yaxşı işləməyə ruhlandırmışdır. Ünvanlı sosial yardımların təyinatı sahəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər ünvanlılıq, şəffaflıq, ədalətlilik prinsiplərinə ciddi əməl olunmaqla həyata keçirilir.

Mərkəzdə aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər yaxşı təşkil olunmuş, bu sahədə möhkəm qayda yaradılmışdır. Məmurlar həmin vəzifəni yerinə yetirməyin məsuliyyətini yaxşı dərk edirlər. Vətəndaşların təqdim etdikləri sənədlər, onların yaşayış vəziyyəti ictimaiyyətin yaxından iştirakı ilə diqqətlə öyrənilir, dövlətin yardımına, həqiqətən, ehtiyacı olan ailələr müəyyənləşdirilir və onlara müvafiq maddi kömək göstərilir. Ünvanlı sosial yardımlar təyin olunmuş aztəminatlı ailələr yardımları mütəmadi olaraq plastik kartlar vasitəsilə alırlar. Bu il şöbəyə ünvanlı sosial yardım üçün 1320 vətəndaşın müraciəti daxil olmuş, bunların 1195-i müsbət həll edilmişdir. Yəni həmin müraciətlər əsasında 5482 ailə üzvü yardımlardan bəhrələnir.

Mərkəzdə uçotda olan sosial müavinət alanların sayı 10262 nəfərdir. Azərbaycanın Milli qəhrəmanları, əmək veteranları, Böyük Vətən və Qarabağ müharibələrinin iştirakçıları, 20 Yanvar şəhidlərinin ailələri hərtərəfli qayğı ilə əhatə olunmuş, onlara müxtəlif məbləğlərdə müavinətlər



ödənilmişdir. 148 şəhid ailəsinə, 4654 əlilə, 2719 nəfər sağlamlığını itirmiş şəxslərə, 5-dən çox uşaq doğub tərbiyə etmiş 327 anaya, ailələrdə tərbiyə olunan 1 yaşadək 130 uşağa mütəmadi olaraq müavinətlər ödənilmişdir. Tənha və kimsəsiz adamlara evlərində xidmət göstərilir. Ehtiyacı olan şəxslər müalicə üçün respublikanın sanatoriyalarına yollanış almışlar.

Müsahibim sonda onu da bildirdi ki, həyat hər gün yeni tələblər irəli sürür, dövlətimizin qarşıya qoyduğu yeni tələblərə uyğunlaşmaq, onların həll edilməsinə ciddi surətdə çalışmaq bizim həm vətəndaşlıq, həm də vəzifə borcumuzdur. Əvvəlki illərdə olduğu kimi, yenə də öz işimizi günün tələbləri səviyyəsində quracaq, bizə tapşırılan bütün işlərin öhdəsindən ləyaqətlə gəlməyə çalışacağıq.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**